

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 58 (23.220)

*30 mart 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurts ilə görüşü olub.

Federal Kansler Sebastian Kurts Prezident İlham Əliyevi qarşılayıb.

Prezident İlham Əliyev və Federal Kansler Sebastian Kurts birgə foto çəkdiriblər.

Sonra Prezident İlham Əliyevin Federal Kansler Sebastian Kurts ilə təkbətək görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Ermənistan-Azərbaycan münaqişəsinin həllini müzakirə etmək üçün Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü olub.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın təkbətək görüşü keçirilib.

Sonra görüş ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam edib.



## "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Sosial-iqtisadi inkişaf sahəsində qəbul edilmiş dövlət proqramlarının uğurla icrası muxtar respublika iqtisadiyyatının daha da güclənməsini, makroiqtisadi göstəricilərin bütün parametrləri üzrə inkişaf dinamikasının qorunub saxlanmasını təmin etmişdir. İqtisadi inkişafın əsas göstəricisi sayılan ümumi daxili məhsulun həcmi birinci proqramın qəbul edildiyi 2004-cü illə müqayisədə 12 dəfə artaraq 2 milyard 773 milyon 20 min manatdan çox olmuşdur. Ümumi daxili məhsulda maddi istehsal sektorunun xüsusi çəkisinin 60 faizə yaxın olması isə sabit iqtisadi artımın daha bir göstəricisidir.

Aparılmış təhlillər və formalaşmış əlverişli iqtisadi mühit muxtar respublikada mövcud olan bütün resurslardan səmərəli istifadənin təşkili, investisiya qoyuluşlarının artırılması, sosial infrastruktur təminatının gücləndirilməsi, yeni istehsal və xidmət sahələrinin, iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 4-cü Dövlət Proqramının qəbul olunması zərurətini yaratmışdır.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, muxtar respublikada növbəti mərhələdə iqtisadiyyatın çoxşaxəli və davamlı inkişafının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə Dövlət Proqramının icrası üçün zəruri tədbirlər görsün.

3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və icrası barədə ildə bir dəfə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 mart 2019-cu il*

## 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbirlər keçirilib

***AMEA Naxçıvan Bölməsində "Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti" mövzusuna həsr olunmuş elmi konfransda əvvəlcə faciə qurbanlarının və Vətən uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycan torpaqlarında ermənilər tərəfindən törədilən faciələrin mahiyyətindən, miqyasından, məqsəd və nəticələrindən danışıb. Bildirib ki, "Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan ermənilər öz çirkin məqsədlərinə çatmaq üçün böyük dövlətlərin dəstəyi ilə azərbaycanlılara qarşı tarixdə mərhələlərlə vəhşiliklər törədiblər.

Qeyd olunub ki, 1918-ci ilin mart ayında ermənilər tərəfindən Bakı ilə yanaşı, Şamaxıda, Qubada, Qarabağda, Naxçıvanda, Zəngəzurda və digər bölgələrdə dinc əhaliyə qarşı tarixdə görünməmiş kütləvi qətl və qırğınlar törədilib, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış yerləri talan edilib.



Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixdə "Azərbaycanlıların soyqırımı haqqında" imzaladığı Fərman soyqırımı həqiqətlərinin bütün dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edən bir sənəddir. Bununla yanaşı, Prezident cənab İlham Əliyevin "1918-ci il Azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli Sərəncamı yüz illərlə xalqımıza qarşı törədilən qəddar cinayətlərin öyrənilməsi və təbliği baxımından əvəzsiz tarixi-siyasi əhəmiyyətə malikdir.

Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, dosent Emin Şıxəliyev "XX əsrdə azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətləri və onların mahiyyəti", həmin institutun aparıcı elmi işçisi, dosent Musa Quliyev "1918-1920-ci illərdə ermənilərin Naxçıvanda törətdiyi faciələr", şöbə müdiri, dosent İlhami Əliyev "Ümummilli lider Heydər Əliyev və azərbaycanlıların soyqırımı və deportasiyası məsələsi", şöbə müdiri, dosent Toğrul Xəlilov "1948-1953-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından deportasiyası və onun acı nəticələri" və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, dosent Elxan Məmmədov "Azərbaycanlıların soyqırımı: alın yazısından elin yazısına" mövzularında məruzələrlə çıxış ediblər.

Konfransda 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü və Xocalı soyqırımına aid real faktları əks etdirən fotoşəkillər və sənədlərdən ibarət videoçarx nümayiş etdirilib, kitab sərgisi təşkil olunub.

* * *

*Naxçıvan Müəllimlər İnstitutunda "31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür" mövzusunda elmi-praktik konfrans keçirilib.*

Konfransı ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev açıb. O bildirib ki, 1918-ci ilin mart qırğınları ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı şəkildə həyata keçirdikləri soyqırımı siyasətinin mərhələlərindən biridir. Təəssüf ki, uzun illər bu soyqırımı siyasi-hüquqi qiymətini almayıb. Yalnız ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirilib, erməni millətçilərinin xalqımıza qarşı illərlə reallaşdırdıqları soyqırımı və deportasiya siyasətinin mahiyyəti bütünlüklə açıqlanıb və ifşa olunub. Ümummilli liderimizin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə hər il respublikamızda 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur, soyqırımı qurbanlarını anma tədbirləri keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 18 yanvar tarixdə imzaladığı "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam isə ulu öndərin siyasətinin uğurla davam etdirilməsinin növbəti ifadəsidir.



Konfransda institutun müəllimi Arzu Abdullayev "Soyqırımı hadisələri və Naxçıvan", Pedaqoji fakültənin dekanı Arif Ağalarov "Tarixdə və günümüzdə erməni vəhşilikləri" mövzularında məruzələr ediblər.

Sonda müəllim və tələbələrin hazırladıqları təsviri və tətbiqi sənət nümunələrindən ibarət sərgiyə baxış olub.

*"31 Mart – bəşəriyyətin ən böyuk soyqırımıdır" adlı elmi-praktik konfrans keçirilib.*

Naxçıvan Dövlət Universitetində keçirilən konfransdan əvvəl universitetin İncəsənət fakültəsində mart soyqırımına həsr olunmuş 20-dən çox sənət əsərindən ibarət sərgiyə baxış olub. Faciə qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov konfransda çıxış edərək erməni daşnaklarının xalqımızın başına gətirdiyi bəlalardan danışıb. Qeyd edib ki, 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli siyasi qiymət olub.

Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov mart soyqırımının azərbaycanlıların milli müstəqillik mübarizəsinə qarşı bolşevik-erməni planı olduğunu vurğulayaraq ermənilərin 1918-ci ilin martında Bakıda, Qubada, Şamaxıda, Naxçıvanda və digər bölgələrdəki vəhşiliklərindən danışıb. Bildirilib ki, 520 min türk-müsəlman əhali erməni soyqırımına məruz qalaraq məhv edilib.

Sonda mövzu ilə bağlı videoçarx izlənilib.

* * *

*"Naxçıvan" Universitetində "Azərbaycanlılara qarşı törədilmiş soyqırımların səbəb, nəticə və ibrət dərsləri" mövzusunda elmi konfrans keçirilib.*



Konfransda əvvəlcə soyqırımı faciəsi qurbanlarının, torpaqlarımızın azadlığı və dövlət müstəqilliyimizin qorunması uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Rektor, professor İsmayıl Əliyev çıxış edərək ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı aktının acı nəticələrindən və 70 illik sovet imperiyası rejiminin tarixi cinayətin ört-basdır edilməsi üçün həyata keçirdiyi məkrli siyasətdən danışıb.

Ümumi tarix kafedrasının dosenti Elçin Zamanovun "XX əsrin əvvəllərində Zaqafqaziyada yeni tarixi mərhələnin başlanğıcı: Türk müsəlmanlara qarşı həyata keçirilən soyqırımların tarixi kontekstdə təhlili" mövzusunda çıxışı dinlənilib.

Konfrans 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı videoçarxın nümayişi ilə başa çatıb.

**Xəbərlər şöbəsi**

**31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür**

# Azərbaycan xalqına qarşı törədilən soyqırımları

*Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların mahiyyəti tam açılmış, həmin hadisələrə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Dahi şəxsiyyət torpaqlarımızın işğalının qarşısını almış, güclü dövlət və güclü ordu yaratmış, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması və erməni saxtakarlığının ifşası istiqamətində tədbirlər görmüşdür. Ulu öndərin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında ermənilərin Azərbaycan xalqına qarşı apardığı soyqırımı siyasəti dərindən təhlil olunmuşdur. Həmin Fərmanda deyilir:* ***"Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisənin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Respublikası bu gün soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin azərbaycanlıların soyqırımının 100 illiyi haqqında 2018-ci il 18 yanvar tarixli Sərəncamında qeyd olunur: *"Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl – 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerləyeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmişlər..."*

Azərbaycan türkləri bir əsrdə bir neçə dəfə fəlakətə məruz qalmış, soyqırımına, deportasiyaya uğramış və hələ də bunun acısını yaşamaqdadır. O dövrün yazılı mənbələri və arxiv materialları 1905-1907-ci illərdə Azərbaycanın bir çox bölgələrində – Bakıda, Gəncədə, Naxçıvanda, İrəvanda, Şuşada ermənilərin Rusiyanın yardımı ilə soyqırımı gerçəkləşdirdiklərini sübut edir. 1905-ci il hadisələrinin şahidi olan M.S.Ordubadi "Qanlı illər" adlı əsərində münaqişənin ortaya çıxmasının səbəblərini belə izah edir: 1) Erməni Daşnaksutyun komitəsinin müstəbid idarə üsulunu təşkil etməsi, qızışdırıcı mövqe tutması; 2) Məhəlli hökumət məmurlarının etinasızlığı və çar üsul-idarəsinin ikili oyunu; 3) Müsəlman əhalinin elmsizliyi və baş verən siyasi hadisələrdən bixəbər olması və 4) Ermənilərin avtonomiya – idarə muxtariyyəti həvəsində olmaları.

Amerikalı alim Castin Makkarti isə münaqişənin hansı səbəblərdən ortaya çıxması ilə bağlı yazır ki, çar Rusiyası hər iki millət arasında baş verən münaqişəni öz maraqları baxımından faydalı görürdü. Tarixi sənədlərdə erməni daşnakları ilə birlikdə çar məmurlarının da milli münaqişəni bilavasitə qızışdırdıqları, evlərin, mağazaların talan edilməsində, qətliamların törədilməsində birbaşa rol oynadıqları yer almaqdadır.

Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti 1905-1907-ci illərlə məhdudlaşmamış, 1918-ci ildə də davam etmişdir. Məhz bunun nəticəsidir ki, 1918-ci ilin mart hadisələrində hədsiz sayda azərbaycanlı erməni zülmünün qurbanı olmuşdur. 1918-ci il mart ayının 30-da Bakı Sovetinin rəhbərlik etdiyi bolşevik-daşnak hərbi dəstələri Bakı şəhərində türk-müsəlman əhaliyə qarşı soyqırımı həyata keçirməyə başladı. Üç gün davam edən Bakı qırğınları zamanı əks-inqilabçı və müsavatçı adı ilə 12 min nəfər dinc əhali amansızlıqla qətlə yetirildi. Bolşevik-daşnak qüvvələri tərəfindən o dövrün gözəl memarlıq abidəsi olan Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə" binası, Şərqin ilk teatrı olan "Tağıyev teatrı", "Açıq söz" və "Kaspi" qəzetlərinin redaksiyaları yandırıldı və "Təzə pir" məscidi dağıdıldı.

Qocaya, qadına, hətta körpə uşaqlara belə, aman verməyən daşnak quldurlarının Bakı şəhərində dinc əhaliyə qarşı hansı məqsədlə soyqırımı törətdiklərini bu qırğınlara rəhbərlik edən S.Şaumyan 13 aprel 1918-ci ildə rəsmi hesabatında açıq şəkildə belə izah etmişdi: "Biz buna şüurlu şəkildə yol verdik... Biz döyüşlərdə parlaq qələbə qazanmışıq. "Daşnaksutyun" partiyasının köməyi ilə müsəlman "əks-inqilabı" ləğv edilmişdir... Əgər müsəlman "əks-inqilabı" qalib gəlsəydi, Bakını Azərbaycanın paytaxtı elan edərdi. Və Zaqafqaziya Rusiya üçün itirilmiş olardı".

1918-ci ilin soyqırımı təkcə Bakı şəhəri ilə məhdudlaşmamış, aprel ayının əvvəllərindən Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan və digər bölgələrdə də bolşevik-daşnak hərbi qüvvələri tərəfindən böyük qətliam və talanlar törədilmişdi. Ümumiyyətlə, 1918-ci ilin mart-aprel ayları ərzində Azərbaycanda 52 min nəfər əhali soyqırımına məruz qalmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Milli hökumət erməni-daşnak qüvvələrinin Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi cinayətləri araşdırmaq üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratdı. Həmin komissiya törədilən qətliamlara aid sənədlər topladı. Bu sənədlər toplusu 36 clddən ibarət idi.

Azərbaycan Xalq Cümhuriyyəti azərbaycanlılara qarşı törədilmiş soyqırımını unutmamaq üçün martın 31-ni ümummilli matəm günü elan etdi və bu hadisə 1919, 1920-ci illərdə qeyd olundu.

Azərbaycanın sovetləşməsi və bolşeviklərin hakimiyyətə gəlməsindən sonra 31 Martın qeyd edilməsinə yol verilmədi.

Ümummilli lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü elan edildi və bu hər il qeyd olunur.

Azərbaycanın bütün bölgələrində – Bakıda, Şamaxıda, Qubada, Gəncədə, Lənkəranda, Qarabağda eyni qayda və ssenari ilə əhali ağır işgəncələrlə qətlə yetirilirdi. Dro, Njde, Hamazasp, Yapon, Andranik kimi cəlladlar Azərbaycan xalqının qanına susamışdılar. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi müəyyən səbəblərdən və çətinliklərdən Naxçıvana lazımi dəstək verə bilmirdi. Naxçıvan əhalisi özü ermənilərə müqavimət göstərir, hətta erməni ordularını məğlub edirdilər. Ancaq bununla birlikdə ermənilər tərəfindən törədilən cinayətlər Naxçıvandan da yan keçmədi.

Naxçıvanda azərbaycanlılara qarşı törədilən soyqırımında Andranik Ozanyan, Dro, Njde, Doluxanov, Yapon və digər erməni cəlladlarının başçılıq etdikləri dəstələr böyük rol oynamışlar. Özünəməxsus vəhşiliyi ilə Andranik öz adını ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı tarixinə xüsusi nifrətlə yazmışdır. Mənbələr onun kimliyi haqqında tam dolğun məlumat verməsə də, törətdiyi cinayətlər barədə kifayət qədər məlumatlar vardır. Andranikin Naxçıvana hücumu 1918-ci ilin iyun ayına təsadüf edir. Naxçıvana hərbi yürüşlərindən əvvəl o, Türkiyənin Ərzurum, Alaça, İlgə, Yaşılyaylada türk qatili kimi tanınmış, Ərzurum soyqırımının əsas təşkilatçılarından olmuş, Araz çayı sahilindəki 4 min nəfərə yaxın əhalisi olan Yaycı kəndini yerləyeksan etmiş, kənd əhalisinin 2000-2500 nəfərini qətlə yetirmiş və Araz çayına tökmüşdü.

Yaycıdan Ordubada doğru irəliləyən Andranik qarşısına çıxan Azərbaycan kəndlərini dağıda-dağıda bu məsafədə 2 min azərbaycanlını öldürmüşdür. Ordubad ətrafı, Əlincəçay boyu, Şahbuz kəndlərinin əhalisi tərk-silah olunub, xeyli hissəsi qətlə yetirilmişdir. Nursu, Kolanı, Hənzər, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Xanağa, Bənəniyar, Camaldın, Ərəzin, Kırna kəndlərində də dəhşətli qırğınlar törədilmişdir.

Tarixi sənədlərdə Şərur bölgəsinə bağlı 45 kəndin də erməni daşnaklarının hücumuna, əhalisinin soyqırımına məruz qaldığı göstərilir. Müsəlmanlar tərəfindən ələ keçirilən ermənilər Naxçıvanda və onun bütün kəndlərində azərbaycanlıların qətlə yetiriləcəkləri və hamısının Araz çayına atılacaqlarına dair əmr aldıqlarını etiraf etmişdilər. Erməni dəstələrinə yazılı olaraq göndərilən əmrdə aşağıdakı ifadələr yer alırdı: "Şərur əhalisini Araz çayına atmaq üçüncü alay komandanlığının əsas vəzifəsidir".

Digər bir fakt: Andranikin qoşunları Sirab kəndinə istiqamət aldığı vaxt Sirab kəndi ətrafında çoxlu qaçqın toplaşmışdı. Onlar kəndin özündən, habelə uzaq və ətraf kəndlərdən gələnlər idilər. 15 mindən artıq erməni quldurunun silahsız, müdafiəsiz insanların üzərinə hücumu nəticəsində bir gün ərzində 10 mindən artıq günahsız insan qətlə yetirildi.

Andranikin dəstəsi Naxçıvan və onun ətraf kəndlərində törətdiyi vəhşiliklərdən sonra 1918-ci ilin sentyabr ayında Sisyana, noyabr ayında isə Gorusa gəlir və orada məskən salır. Bu tarixdən Zəngəzurun və bütün Qarabağın qara günləri başlayır. Sisyandan başlamış Şuşayadək Azərbaycan kəndlərini oda yaxıb viran qoymuş, sonra Dərələyəzə qayıtmış, Keşişkənddə Yapon adlı digər erməni daşnakı ilə birləşərək Çivə kəndinə hərəkət etmiş, yolüstü Əmov kəndində qırğın təşkil etmişdir. Ermənilərin məqsədi Şuşadan başlamış Aralıq dənizinədək uzanan əraziləri nəzarət altına almaq idi. Bu minvalla Azərbaycan və Türkiyənin 6 əyaləti "Böyük Ermənistan"ın tərkibinə daxil olmalı, yəni "Dənizdən dənizə" terrorçu, hərbiləşdirilmiş Daşnak partiyasının ruhuna uyğun hökumət yaradılmalı idi.

Arxiv materiallarında yuxarıda adları çəkilən erməni komitəçilərinin, xüsusilə də Andranik Ozanyanın silahlı dəstələrinin İrəvan əyalətində 200-dən çox, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad nahiyələrində də 50-dən çox müsəlman kəndlərinə silahlı hücumlar təşkil etdiklərinə, kənd əhalisinin böyük əksəriyyətinin qətlə yetirildiyinə dair məlumatlar yer almaqdadır.

Mənbələrdən əldə edilən məlumatlara görə, 1918-1920-ci illər arasında Naxçıvanda 73 min 727 azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi, ***"Yüz il bundan əvvəl – 1918-1920-ci illərdə ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş ikinci soyqırımı həm miqyası, həm də vəhşiliyi etibarı ilə bəşəriyyət tarixində ən qanlı cinayətdir. Onun mahiyyətini başa düşmək üçün faktlara diqqət yetirmək kifayətdir: Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Zəngəzurda 115, Qarabağda 157, Qars əyalətində 92, İqdırda 60, Vedibasarda 118 Azərbaycan kəndi tamamilə dağıdılmış, əhalisinin əksəriyyəti öldürülmüşdü. O dövrdə azərbaycanlıların yaşadıqları elə bir ərazi yox idi ki, orada erməni talanı və vəhşiliyi həyata keçirilməsin. Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvanda da soyqırımlar törədilmişdir. Arxiv sənədlərindən aydın olur ki, 1910-cu ildə Naxçıvanda 146 min nəfər əhali yaşayırdısa, 1921-ci ildə burada yaşayanların sayı 74 min azalaraq 72 min nəfər olmuşdu. Azərbaycanın Ədliyyə Komissarı, görkəmli diplomat Behbud ağa Şahtaxtinski Azərbaycan İnqilab Komitəsinin 1921-ci il 19 aprel tarixli iclasında Naxçıvandakı vəziyyətə dair çıxışında bildirirdi ki, ermənilər Naxçıvan, Ordubad və Şərur-Dərələyəzdə 240 kəndi dağıdaraq xarabalığa çevirmiş, əhalisini öldürmüş, əmlaklarını qarət etmişlər".***

Çoxsaylı tarixi sənədlər sübut edir ki, 1905-1907, 1918-1920 və sonrakı illərdə Qafqazda öz tarixi etnik ərazilərində etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalmış minlərlə azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş, ata-baba yurdlarından didərgin salınmışdır. Təəssüf ki, 1988-ci ildən başlayaraq Azərbaycan torpaqlarının işğal edilməsi, növbəti soyqırımı siyasəti dünya dövlətlərinin sükutu ilə qarşılanmışdır. Məhz böyük dövlətlərin gizli və açıq dəstəyinin nəticəsidir ki, keçmişdə olduğu kimi, ötən əsrin sonlarında da ermənilər eyni ssenari üzrə cinayətlər törətmiş, Azərbaycanın 20 faiz ərazisi Ermənistanın işğalı altına düşmüşdür.

*Erməni millətçiləri və itirilən torpaqların himayədarları birmənalı şəkildə bilməlidirlər ki, Azərbaycan xalqı torpaqlarının itirilməsi faktı ilə heç vaxt barışmayacaq, itirilən torpaqların geri qaytarılması üçün bütün səyləri ilə mübarizə aparacaqdır.*

**Emin ŞIXƏLİYEV**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru***

## *"31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür"* mövzusunda interaktiv dərs keçilib



İnteraktiv dərsdə AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov şagirdlərə məlumat verərək bildirib ki, ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının xalqımıza qarşı törətdikləri dəhşətli cinayətlərin izləri Xatirə Muzeyindəki eksponatlarda da öz əksini tapıb. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhid olmuş qəhrəmanlarımızın fotoşəkilləri, şəxsi əşyaları və sənədləri, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir.

Qeyd olunub ki, 1918-ci ilin martında törədilmiş bu soyqırımı paytaxt Bakı şəhəri də daxil olmaqla, ölkəmizin bir sıra regionlarını, o cümlədən muxtar respublikamızı da əhatə edib. 1905-1907, 1918-1920, 1988-1994-cü illərdə xalqımıza qarşı soyqırımı törədilməsində əsas məqsəd torpaqlarımızın işğalı və "Böyük Ermənistan" dövlətinin yaradılması idi. Hazırda muzeydə bu faciəli hadisələri özündə əks etdirən müxtəlif fotoşəkillər, xəritələr və sənədlər nümayiş etdirilir.

Vurğulanıb ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları və deportasiya ilə bağlı məsələyə ilk siyasi-hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib. Ulu öndərin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman bu baxımdan çox mühüm tarixi sənəddir.

Diqqətə çatdırılıb ki, dahi şəxsiyyətin bu sahədəki fəaliyyətini Prezident cənab İlham Əliyev bu gün uğurla və qətiyyətlə davam etdirməkdədir.

İnteraktiv dərsdə azərbaycanlılara qarşı ayrı-ayrı vaxtlarda həyata keçirilən soyqırımı və deportasiya siyasətinin acı nəticələrini özündə əks etdirən eksponatlar videobağlantı vasitəsilə şagirdlər tərəfindən izlənilib və müxtəlif bölmələrdə yerləşən eksponatlar haqqında geniş məlumat verilib.



*Naxçıvan şəhər 1 nömrəli tam orta məktəb*



*Qarabağlar kənd 1 nömrəli tam orta məktəb*

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox təhsil müəssisəsində izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***Naxçıvanda ilk dəfə olaraq Radio Verilişləri Komitəsi 1932-ci il aprelin 1-də yaradılıb. 1963-cü il martın 12-də qısa xəbərlərlə televiziyanın ilk sınaq yayımı həyata keçirilib, avqustun 14-də isə Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsi təşkil olunub. Həmin dövrdə maddi-texniki bazası zəif olan, cəmi bir baş redaksiya ilə fəaliyyət göstərən Naxçıvan Dövlət Televiziyasının yayım dairəsi də olduqca məhdud idi.***



# Naxçıvan Dövlət Teleradiosu muxtar respublikanın dünyaya açılan pəncərəsidir

Naxçıvan teleradiosu 1969-cu ilədək yalnız Naxçıvan şəhərində yayımlanıb. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra bütün sahələrdə olduğu kimi, televiziya və radio da yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu öndərimizin tapşırığı ilə qısa müddət ərzində Azərbaycan Televiziyasının verilişlərinin muxtar respublika ərazisində yayımlanması və yerli teleradionun imkanlarının genişləndirilməsi üçün texniki məsələlər öz həllini tapdı, verilişlərin qəbulu üçün 10-dan çox radio-televiziya xətti və yarımstansiyalar quraşdırıldı. Bununla da teleradionun muxtar respublikanın əksər bölgələrində yayımlanmasına nail olundu.





Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə Naxçıvan Dövlət Televiziyası və Radiosu böyük inkişaf yolu keçib, teleradio müstəqil kanalda yayımlanmağa başlayıb. Müxtəlif illərdə teleradionun maddi-texniki bazası xeyli gücləndirilib, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, müasir texniki avadanlıqlarla təchiz edilib. Yeni yayım avadanlıqları qısa zamanda analoq yayımın yüksəkkeyfiyyətli rəqəmsal yayımla əvəzlənməsinə şərait yaratdı. Beləliklə, Naxçıvan Dövlət Televiziyası ölkəmizdə ilk dəfə olaraq yüksəkkeyfiyyətli HD formatda yayıma başladı. İlbəil avadanlıqları yeniləşdirilən dövlət teleradiosunda bu gün dünyanın qabaqcıl ölkələrinin teleradiolarında istifadə olunan ən müasir texniki avadanlıqlar quraşdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı "Tədbirlər planı"nın təsdiq edilməsi barədə" 2018-ci il 6 fevral tarixli Sərəncamı teleradionun fəaliyyətini daha da genişləndirmişdir. Tədbirlər planına əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 fevral tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi aparatının, yaradıcı heyətinin və texniki istehsalat sahəsinin ştat cədvəllərində dəyişikliklər edilib, muxtar respublikada ilk dəfə "Nuhçıxan" İnformasiya Agentliyi yaradılıb, Proqram Buraxılış və Əlaqələndirmə Direksiyasının əsasında "Proqram direksiyası" və "Efirə Buraxılış və Əlaqələndirmə direksiyası", Naxçıvan teleradiosunun "Nuhçıxan" xalq çalğı alətləri ansamblı və "Aparıcılar qrupu"nun əsasında radionun "Səhər verilişləri redaksiyası" təşkil olunub.





Tədbirlər planına əsasən maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə 22 adda 200 min manata yaxın yeni yayım və çəkiliş avadanlıqları alınaraq istifadəyə verilib. Xüsusi sifarişlə yığılan mobil çəkiliş studiyası və çəkiliş pultu, əlaqə qurğuları, videokamera dəstləri, professional fotokamera, "GoPro" kameraları, "Osmo" hərəkətli kamera, SDCAM qurğuları, "Dynacord" səs pultu, "Sony" markalı əl mikrofonları, siqnalçevirici qurğular, 600 metrlik HD kabel və qutuları, eləcə də alınıb gətirilmiş digər avadanlıqlar ən son texnologiyaya əsaslanır.



Ötən il mayın 15-də Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Nuhçıxan" İnformasiya Agentliyinin təqdimatı olub. Agentliyin *nuhcixan.az* internet saytı hazırlanıb. Saytda Azərbaycan, ingilis və rus dillərində operativ informasiyalar təqdim olunur. *Naxcivantv.az* saytının və "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyətini təşkil etmək məqsədilə televiziyada "İnformasiya təminatı və saytlarla iş redaksiyası" yaradılıb. Geniş izləyici kütləsi toplayan "Nuhçıxan" İnformasiya Agentliyi Naxçıvanın mühüm informasiya mənbəyi olmaqla yanaşı, həm də müstəqil ölkəmizin əsas informasiya portallarından birinə çevrilib. Agentliyin saytında gündəlik olaraq yerli əhəmiyyətli xəbərlər, ölkə və dünyada baş verən hadisələr izləyicilərə çatdırılır.

Yaradılan şərait nəticəsində 15 iyun 2018-ci il tarixdən Naxçıvan Dövlət Televiziyası və Radiosunun efir vaxtı daha 1 saat artırılaraq 19 saata çatdırılıb. "Xəbərlər" redaksiyasının studiyaları yenidən qurulub.

Teleradioda kadr hazırlığı sahəsində də ardıcıl tədbirlər görülür, kinooperatorlar, rejissorlar və aparıcılar üçün davamlı olaraq təkmilləşdirmə kursları keçirilir. Ötən dövrdə 50-dən artıq kadr, o cümlədən Naxçıvan Dövlət Universitetinin televiziyaya hamiliyə verilən Jurnalistika ixtisası üzrə gənclər sınaq müddəti dövründə hazırlanaraq Naxçıvan teleradiosunda işə qəbul olunub. Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən "Universitet" televiziyasının və "Nuhçıxan" radiosunun fəaliyyəti də diqqətdə saxlanılıb, televiziyanın və radionun audioteka və videotekası zənginləşdirilib.

İstər Naxçıvan Dövlət Televiziyasında, istərsə də Naxçıvan Dövlət Radiosunda yaradılan maddi-texniki imkanlar, öz növbəsində, yaradıcı işin keyfiyyətinə də təsir edib. Əgər əvvəllər Naxçıvan Dövlət Televiziyasının istehsalı olan telemateriallar ümumi efirin 20-25 faizini təşkil edirdisə, hazırda bu rəqəm 70 faizədək yüksəlib. Son illər ərzində 70-dən artıq sənədli və televiziya filmi çəkilib. Naxçıvan Dövlət Televiziyasının öz istehsalı olan verilişlər və filmlər Türkiyənin TRT, ölkəmizdə Azərbaycan Dövlət Televiziyası, İctimai və Lider televiziyaları, AZƏRTAC vasitəsilə də tamaşaçılara təqdim edilir.

Televiziyada həftədə bir dəfə xəbər proqramları ingilis və rus dillərində də yayımlanır. Bu ildən başlayaraq ingilis dilində xəbərlər radio vasitəsilə də çoxsaylı dinləyicilərə çatdırılır.

Bu gün dünyanın istənilən yerindən Naxçıvan televiziyasını internet vasitəsilə izləmək mümkündür. Bu işlərin əsası 2016-cı il oktyabrın 17-də – Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümü ərəfəsində Naxçıvan Dövlət Televiziyasının internet üzərindən yayıma başlaması ilə qoyuldu. Bu, 25 ildən artıq blokada şəraitində yaşayan muxtar respublikada informasiya blokadasının yarılması demək idi.

Naxçıvan Teleradiosunun internet saytının və "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyəti televiziyanın xarici ölkə mediaları ilə əlaqələrini genişləndirib, televiziyanı dünyanın hər yerindən izləmək imkanı yaranıb. Bütün bunların nəticəsidir ki, Naxçıvan Dövlət Televiziyasının canlı yayımı Bakı şəhərində fəaliyyət göstərən "KTV" və *myvideo.az*, Rusiyada fəaliyyət göstərən *Livetv.az* internet saytlarında və Türkiyənin "Dreamstar" kabel televiziyasında təşkil edilib. *Livetv.az* vasitəsilə artıq dünyanın istənilən məkanından smartfonlar vasitəsilə Naxçıvan televiziyasının canlı efirini izləmək mümkündür.

2018-ci ilin noyabr ayından Naxçıvan Dövlət Radiosunun "Youtube" kanalı üzərindən canlı yayımının təşkil edilməsi radioya minlərlə dinləyici auditoriyası qazandırıb. Hazırda Naxçıvan televiziyasının da "Youtube" kanalı üzərindən test yayımı həyata keçirilir. Teleradio son illər sosial şəbəkələrdəki aktivliyini daha da artırıb, 10 min izləyicisi olan 4 "Youtube" kanalı, 100 mindən çox istifadəçisi olan 6 "Facebook" səhifəsi və qrupu, 30 min istifadəçisi olan "İnstagram" səhifəsi və 4 min istifadəçisi olan "Twitter" səhifələrində televiziyanın 20 mindən artıq video və veb materialı yerləşdirilib.

***Bu gün dünyanın istənilən yerində televiziyanın izlənilməsi muxtar respublikanın tanıdılmasına, diyarımızda həyata keçirilən böyük quruculuq tədbirlərinin, insanların yaşayış səviyyəsi, qədim diyarın mədəniyyəti, tarixi-mədəni irsi və milli dəyərləri haqqında məlumatların daha geniş tamaşaçı kütləsinə çatdırılmasına imkan verir. Naxçıvan Teleradiosu və "Nuhçıxan" İnformasiya Agentliyi muxtar respublikanın dünyaya açılan pəncərəsi olaraq Naxçıvanın dünyada tanıdılması və təbliği işini bundan sonra da davam etdirəcəkdir.***

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Televiziya və Radio Verilişləri Komitəsi***

# Könüllü sığortalar hər kəsin rifahına xidmət edir

Bu gün muxtar respublikada sığorta işinin təşkili yüksək səviyyədə təmin edilib. Qeyd edək ki, sığortanın icbari və könüllü növləri vardır. Daha çox yayılmış olan könüllü sığortalar tərəflərin qarşılıqlı razılaşma yolu ilə qaydalar əsasında aparılır və baş vermiş gözlənilməz bədbəxt hadisələrin insanların cansağlığına və əmlakına vurduğu maddi zərərlərin əvəzinin ödənilməsinə xidmət edir. Belə ki, ən geniş yayılmış olan fərdi qəza sığortası zamanı günün 24 saatı ərzində Azərbaycan Respublikası ərazisində istənilən gözlənilməz hadisə nəticəsində sığortaolunanın həyatına və sağlamlığına hər hansı zərərin dəyməsi, vətəndaşın ümumi əmək qabiliyyətinin müvəqqəti və yaxud daimi itirilməsi, ölüm hadisələrinə sığorta təminatı verilir. Bu zaman bir il müddətinə bağlanılmış müqaviləyə əsasən zərərçəkmiş şəxs, yaxud onun varisi dəymiş zərər müqabilində maddi yardım alır.

Digər bir könüllü sığorta olan avtonəqliyyat vasitələrinin tam sığortası, yaxud kasko sığorta Azərbaycan Respublikasının vətəndaşları, respublikada daimi yaşayan xarici ölkələrin vətəndaşları, vətəndaşlığı olmayan şəxslər, habelə hüquqi şəxslərlə bağlanır. Bu sığorta növü sığorta hadisələri nəticəsində nəqliyyat vasitələrinin zədələnməsi, məhv olması, yaxud itirilməsi hallarında aparılır. Burada sığorta hadisələri nəqliyyat vasitəsinin hansı bir hadisə, təbii fəlakətlər, yanğın, partlayış, yol-nəqliyyat hadisələri nəticəsində onların zədələnməsi, yaxud məhv olması hesab edilir.

Səyahət sığortası da digər bir könüllü növ kimi diqqəti cəlb edir. Belə ki, bu zaman sığortaolunanların sığorta müddəti ərzində Azərbaycan Respublikasının sərhədindən kənarda olduqları zaman təsadüfilik əlaməti daşıyan istisnalar arasında yer almayan xəstəliyə məruz qalması və bədbəxt hadisə nəticəsində zədə alması ilə əlaqədar tibbi yardım almaq məqsədilə tibb müəssisələrinə müraciətləri sığorta hadisəsi hesab olunur.

Əmlakın yanğın və digər əlavə risklərdən sığortası nəzərdə tutulmuş şərtlər əsasında Azərbaycan Respublikası vətəndaşları, Azərbaycan Respublikasında daimi yaşayan xarici ölkə vətəndaşları və vətəndaşlığı olmayan şəxslərlə bağlıdır. Sığorta müqaviləsi yalnız Azərbaycan Respublikası ərazisində qüvvədə sayılır. Sığortaetdirənə və onunla bir yerdə yaşayan ümumi təsərrüfatı birlikdə olan ailə üzvlərinə məxsus və həmin ailənin məişət və mədəni tələbatını ödəmək məqsədilə şəxsi təsərrüfatda istifadə üçün nəzərdə tutulan ev ləvazimatı əşyaları (ev əmlakı) sığortaya qəbul edilir. Bu sığorta növündə sığorta hadisəsi yanğın, partlayış, təbii fəlakətlər, istilik sisteminin, su kəmərinin və kanalizasiya şəbəkəsinin qəzası ilə əlaqədar olaraq ev əmlakının zədələnməsi, yaxud məhv olması halları hesab edilir.

Fiziki şəxslərə məxsus olan heyvanların sığortası da könüllü sığortalar üzrə geniş yayılmış növlərdən biridir. Bu zaman şəxsi mülkiyyət hüququnda vətəndaşlara məxsus olan heyvanların könüllü sığorta müqavilələri nəzərdə tutulmuş şərtlərlə bağlanır. Müqavilə üzrə 6 aylıqdan yuxarı yaşda iribuynuzlu heyvanlar, 1 yaşdan yuxarı atlar, qoyunlar, keçilər sığortalana bilər. Heyvanların könüllü sığortası zamanı onların xəstəliklər, həmçinin yanğın, partlayış, ildırımvurma, elektrik cərəyanının təsiri, təbii fəlakətlər və başqa zədələnmələr nəticəsində tələf olması hallarında aparılır.

Kənd təsərrüfatı binaları, tikililəri və sair əmlakların sığortası zamanı mülkiyyət formasından asılı olmayaraq, sığortalıya məxsus binalar, tikililər, qurğular, avadanlıqlar, xammal-materiallar, kənd təsərrüfatı texnikaları, hazır məhsullar və sair əmlaklar sığorta obyekti sayılır.

Kənd təsərrüfatı bitkilərinin istehsalçılarına məxsus kənd təsərrüfatı bitkiləri də sığortaya cəlb olunur. Bu növ könüllü sığorta üzrə sığorta məbləği kənd təsərrüfatı bitkilərinin məhsullarının son 5 ildə və ya ondan az müddətdə 1 hektarın orta məhsuldarlığına, bazar qiymətinə və əkin sahəsinə görə müəyyən edilir.

**Əli CABBAROV**

## Erməni xislətinin Nehrəm kəndində törətdiyi cinayətlər yaddaşlarda

*Özlərini bir etnik qrup kimi tanıyandan Avropada və Amerikadakı ağalarına nökərçilik etməklə havadarlar qazanan ermənilər hər fürsət düşdükcə onlara torpaqlarına yer vermiş qonşularına xaincəsinə hücumlar etməyi bir an belə, unutmayıblar. Tarixdə heç zaman olmamış dırnaqarası dənizdən-dənizə bir dövlət qurmaq xülyası ilə yaşayan ermənilər belə getsə, mövcud torpaqlarında da kimsənin daha qalmayacağını bilə-bilə yenə də öz fitnə-fəsadlarından əl çəkmir, ötən əsrin əvvəllərindən başlayaraq davam etdirdikləri terror və vəhşiliklərini örtbasdır etməyə çalışaraq qaranlıq pərdələr arxasında yeni oyunlar çıxarmağa çalışırlar. Amma çifayda... Bu quzu libasındakı xainlər bilirlər ki, dünya artıq əvvəlki dünya deyildir. Təkcə humanist türklər deyil, bütün dünya yuxudan ayılıb və indiki internet dövründə dahi alman alimi Marks, böyük rus şairi Puşkin kimi çox sayda tanınmış insanların ermənilərin mənfur bir millət kimi tam dolğunluğu ilə xarakterizə edən kəlamlarını hamı bilir.*

Görəsən, yüz il əvvəl, 1918-ci ilin martında bütün Avropada, eləcə də Azərbaycanda, o cümlədən Bakıda yaranmış ağır ictimai-siyasi vəziyyəti fürsət bilib müsəlmanlara “dərs vermək” üçün milli qırğına hazırlaşan ermənilər bu gün özünün hərtərəfli inkişafı ilə onları tarixə gömməkdə olan güclü bir Azərbaycan Respublikası ilə qarşı-qarşıya qalacaqlarını bilsəydilər hansı yolu seçərdilər? Bunu demək çətin olsa da, hər halda erməni xislətinin vəhşiliklərini yada salmaq üçün bu faciələri yaşayan şahidlərin xatirələri ilə bir daha geri dönməkdə fayda var.

Mehralı Cəfərov Nehrəmin tanınmış ağsaqqallarındandır. Ömrünün 89 yaşını haqlasa da, hələ özünü cavan sayan Mehralı müəllim sovet dövründə Nehrəm məktəblərində tarix dərsi deyib. Həmişə tələbələrinə və həmsöhbət olduğu insanlara yaşadığı yerin tarixi keçmişi haqqında danışmağı, atası Cəfər kişinin, nehrəmlilərin şairə kimi tanıdığı nənəsi Sona xanımın xatirələrindən, xüsusən XX əsrin əvvəllərində erməni quldur dəstələrinin Nehrəm kəndinə hücumlarından danışmağı, kənd camaatının özünümüdafiəsi haqqındakı o qiymətli sözlərini yada salmağı sevir. Elə bu dəfə də mövzu ilə bağlı Mehralı Cəfərovla görüşmək arzumuzu bildirəndə o, həvəslə razılaşdı.

Mehralı Cəfərov deyir ki, Naxçıvana erməni hücumları barədə onun gənclik illərində eşitdiyi çox xatirələr olub. Kaş ki, onları bir yerə yazsaydım, – deyə təəssüflənir. Talançı daşnak generalı Andranik Ozanyanın Naxçıvana hücumları, soyqırımı törədib Zəngəzurdan Şuşayadək olan əraziləri ələ keçirmək üçün etdiyi vəhşiliklər heç zaman unudulmamalıdır. Naxçıvanda o zaman onlar ilk soyqırımı Culfa rayonunun Yaycı kəndində törədiblər. Erməni qaniçənlər kəndin əhalisini qılıncdan keçirmiş, qadın, qoca və uşaqları Arazın qanlı sularında boğmuşlar. Həmin vaxt Naxçıvana köməyə gəlmiş Türk ordusunun da yardımı ilə Nehrəm ətrafında rüsvayçasına məğlub edilmiş Andranikin dəstələri geri qaçmağa məcbur oldu. Geri çəkilərkən viran etdikləri 18 Naxçıvan kəndi qalmışdı, – deyir ağsaqqal.

Yaşlı nehrəmlilər 1918-ci ilin həmin günlərini yaxşı xatırlayırdılar, – deyə Mehralı müəllim söhbətinə davam edir. Məsələn, 103 il ömür sürmüş Qənbərəli Əlirzayev deyərmiş ki, Nehrəmdə “Bağırsaqdərə” deyilən yerdə o vaxt qoyun saxlayırdılar. Bir gün günorta vaxtı Camaldın kəndi tərəfdən gələn silahlı bir atlı ona yaxınlaşıb süd istəyib, o da bir patıl (çobanların süd sağdığı qab) süd sağıb verib. Heybəsindən çıxardığı kifsəmiş kökəni patıldakı südə doğrayıb yeyən atlının erməni olduğunu bilən gənc həmin gecəni uzaqdakı bir mağarada keçirib. Səhər tezdən onu çağıran kəndliləri ilə “Bağırsaqdərə”yə gələndə qətl edilmiş 7 nəfərin meyidi ilə rastlaşıblar. Burada öldürülən nehrəmlilərdən 3-ü qadın, 3-ü kişi, biri isə onun üç aylıq körpə qardaşı olub. Qənbərəli kişi deyərdi ki, ermənilər onun qardaşı Gəncəlini yaralasalar da, o, ölməyibmiş, sonra onu evə aparıb türkəçarələrlə müalicə edib sağaldıblar.

O zaman milli komitənin katibi olmuş Mirzə Bağır deyərdi ki, bir gün sübh tezdən Andranikin dəstəsi Nehrəmə hücum edib. Nehrəm əhalisini top və pulemyot atəşinə tutublar. Atışmanın səsi Naxçıvan şəhərinədək gəlirmiş. Nehrəm əhalisi güclü müqavimət göstərib. Andranikin dəstəsi böyük itkilər verib. Lakin ermənilər Nehrəm arxı yanındakı evlərə od vurub yandırıblar. Naxçıvandan köməyə gələn Hacı Heydər, Məşədi Heydərin adamları erməni dəstələrini yarıb Nehrəmə daxil olublar. Andranikin dəstəsindən 60 nəfərə yaxınının nehrəmlilər tərəfindən əsir alınması xəbəri böyük bir coşğu ilə qarşılanıb.

Həmin acılı günlərin digər bir şahidi Heydərqulu Həsənov deyərdi ki, o vaxt ermənilər Nehrəm dağındakı “Taharın düzü” deyilən yerdən də Nehrəmə hücum etdilər. Andranik öz quldur dəstəsi ilə kənddə Hacı Qənbərin həyətinə girir. Həyətdəki sıx ağaclıqda arxayınlıqla oturub yemək yeməyə başlayırlar. Nehrəmlilər də hər yerdə pusquda adamlar qoyublarmış. Nehrəmli ağsaqqal, həm də sərrast tüfəng atan Müslüm Vəliyev Hacı Əlinin bağında gözləyirmiş. Ermənilər Müslümün adını əvvəlcədən eşitmişdilər. Deyilənə görə, Andranik Müslümə sifariş göndərir ki, bizə bir xidmətçi göndər yemək hazırlasın. Erməni Hacı Qənbərin daxmasının arxasından başını çıxarıb həmin sözü bir də təkrar edərkən Müslüm güllələri onun ağzına doldurur. Bunu gözləməyən ermənilər pərən-pərən düşüb həyətdən qaçırlar. Bu vaxt Nehrəm arxında həmin ermənilərin bir qismini məhv edirlər.

Nehrəmdə erməni qəsbkarlarına qarşı inadla müqavimət göstərmiş Müslüm Vəliyev, Müseyib, Nazimin oğlu Məşədi Ələsgər, Sadıq, Mirzəməmməd, Bağır, Niftalı, Abdulla, Sənəm oğlu Əli, Muxtar Sadiqov, Qulu oğlu Məhəmməd, Səfərli, Fətəli, Kərəm, Heydərqulu Həsənov və başqalarının igidliyi bu gün də yaxşı xatırlanır. Ermənilərə qarşı döyüşlər gedərkən kənd ağsaqqallarından Hacı Mehdi, Kərbəlayı Muxtar, Müslüm, Kazım belə məsləhət görürlər ki, kənddəki qadın və uşaqları ayrıca evlərə yığsınlar. Belə də edirlər. Qadın-uşaq yığılan Kərbəlayı Bağırın, Nəmət Məmmədovun, Hacı Əliqulunun, Kərbəlayı Muxtarın, Hüseynin, Hacı Abbas bəyin evlərinin hər birinə iki pud neft də qoyublar ki, birdən ermənilər kəndi ələ keçirsə, evlərə neft tökülüb arvad-uşaq qarışıq yandıracağıq ki, cəlladların əlinə keçməsinlər. Bax belə savaşıblar ermənilərə qarşı o zaman. Həmin vaxt Nehrəmdə cəmi 2 top olub. Onlardan da biri xarab imiş, mərmi atmırmış. Nehrəmlilər o biri topun yerini tez-tez dəyişib Türk ordusundan köməyə gəlmiş Yavərin yardımı ilə elə atırdılar ki, onların bir neçə topu varmış kimi ermənilərdə vahimə yarada bilsinlər.

Erməni quldurları Nehrəmdə, eləcə də bütün Naxçıvanda çox azərbaycanlı öldürüb, xeyli maddi zərərlər versələr də, layiqli cavablarını da alıblar. Deyilənə görə, Andranik İmamzadə tərəfdən hücuma keçərkən kəndin ağsaqqallarından Kazımın çağırışı ilə ona qarşı çoxlu gənc döyüşüb. Danışırdılar ki, təkcə indiki Cəlil Məmmədquluzadənin Nehrəmdəki Xatirə Muzeyinin həyətində min nəfərə qədər erməni quldurу məhv edilib. Bir də onu da deyirlər ki, Andranik Nehrəmdə məğlub olandan sonra Vedi və Zəngəzur tərəfdə 1800 nəfər azərbaycanlını tutur. Bunu eşidən ozamankı Nehrəmin qlavası Kərbəlayı Muxtar Andranikə sifariş göndərir ki, əgər o adamların birinin burnu qanasa, əlimdəki erməni əsirlərinin birini də salamat buraxmayacağam. Və istədiyinə də nail olur, həmin adamları buraxdırır.

Bu gün, sözün əsl mənasında, hər tərəfdən iflasa uğramış erməni daşnakları 101 il əvvəl Nehrəm ətrafında da əzilib-qovulublar. Bu gün ərazi bütövlüyümüzün qorunması üçün canından keçmiş bütün şəhidlərimizin, eləcə də Nehrəmin müdafiəsində igidlik göstərmiş bütün insanların ruhunun şad olmasını diləyirik, – deyir söhbətinin sonunda Mehralı müəllim. Və qoca nənəsinin bu zəfərlə bağlı dediyi şeirlərdən xatırlayır:

*Müslüm durub Hacı Əlinin bağında,*
*Müseyib sağında, Sadıq solunda,*
*Qırıb tökür İmamzadə dalında.*
*Yeri ha, yeri ha, köpək əndiri,*
*Nehrəmlilər göydən quşu endiri.*

*Yavər də topunu durmadan atdı,*
*Andranikin qoşunu yan-yana yatdı,*
*Hay ilə gəlmişdi huyuna çatdı.*
*Yeri ha, yeri ha, köpək əndiri,*
*Nehrəmlilər göydən quşu endiri.*

*Ərəzində Səməd, Nehrəmdə Müslüm,*
*Hücuma keçdilər hamıdan üstün,*
*Andranikin qoşunun etdilər təslim.*
*Yeri ha, yeri ha, köpək əndiri,*
*Nehrəmlilər göydən quşu endiri.*

**Qələmə aldı: Əli CABBAROV**

## Seminar-müşavirə olub

*Seminar-müşavirədə Babək Rayon İcra Hakimiyyətinin əməkdaşı Seyid Mirdavud çıxış edərək Babək rayonunda ailə təsərrüfatlarının inkişafında onlara göstərilən dövlət dəstəyinin əhəmiyyətindən danışıb.*



Sonra Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Xaliq Abbasov əkinçiliklə məşğul olan ailə təsərrüfatlarının inkişaf etdirilməsində yaz əkinlərinin əkin atlaslarına uyğun aparılmasından və növbəli əkin sisteminin tətbiqinin əhəmiyyətindən söhbət açıb.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əməkdaşı Əli Şərifovun “Ailə təsərrüfatlarında istehsal olunan məhsulların, əsasən, “Naxçıvan qovurması” istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi və təşviqi”, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşı Elnur Mahmudovun “Ailə təsərrüfatlarının inkişaf etdirilərək kiçik sahibkarlıq subyektlərinə çevrilməsi məqsədilə maarifləndirici tədbirlərin genişləndirilməsi” mövzularında çıxışları dinlənilib.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Oqtay Məmmədov isə ailə təsərrüfatlarına məxsus torpaqlardan səmərəli istifadə olunması yollarından danışaraq bildirib ki, qəbul edilmiş Dövlət Proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi aqrar sektorun çoxsahəli inkişafını təmin etməkdədir. Bu inkişaf bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da özünü büruzə verir.

Sonda iştirakçıların sualları cavablandırılıb.

**Pərviz HACILI**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Ailə kəndli təsərrüfatı nədir?*

**Cavab:** Ailə kəndli təsərrüfatı ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi, mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalının, emalının, saxlanmasının, daşınmasının və satılmasının) birgə həyata keçirilməsidir.

Ailə kəndli təsərrüfatının tərkibi bir nəfərdən, ailə üzvlərindən və onlarla qohumluq və ya digər münasibətlər əsasında birgə fəaliyyət göstərən şəxslərdən ibarət ola bilər.

Ailə kəndli təsərrüfatı kənd yerlərində qanunvericiliklə qadağan olunmayan və məhdudiyyət qoyulmayan bütün iqtisadi fəaliyyət növləri ilə məşğul olan təsərrüfatçılıq subyektidir və onun fəaliyyəti sahibkarlıq sayılmır. Ailə kəndli təsərrüfatının statusu onların uçotunu aparan orqan tərəfindən ailə üzvlərinə verilən sənədlə rəsmiləşdirilir.

Ailə kəndli təsərrüfatı onun üzvlərinin seçdiyi təsərrüfat başçısı tərəfindən idarə edilir.

**Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti**

## *“Diqqət, piyada!”* devizi altında növbəti aksiya keçirilib





*Bir qrup gəncin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi ilə birgə “Diqqət, piyada!” devizi altında növbəti aksiya keçirib.*

Aksiya başlanmazdan əvvəl Naxçıvan şəhərindəki Gənclər Mərkəzində təşkil olunan tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun əməkdaşı Fərid Seyidov dayanıqlı ictimai-siyasi sabitliyin və əmin-amanlığın muxtar respublikamızda yüksək uğurlara yol açdığını, insanların həyat şəraitinin xeyli yaxşılaşdığını, rifah halının yüksəldiyini vurğulayıb.

Qeyd olunub ki, muxtar respublikamızda fərdi avtomobillərin sayının gündən-günə artması avtomobil yollarında hərəkətin təhlükəsizliyinə ciddi əməl olunmasını daha da zəruri edib. Bu prosesdə avtomobil sürücüləri ilə yanaşı, piyadaların da üzərinə mühüm vəzifələr düşür.

Diqqətə çatdırılıb ki, aidiyyəti qurumlar tərəfindən yollarda müxtəlif nişanlar qoyulub, piyada keçidləri müəyyənləşdirilib. Yol hərəkəti qaydalarına əməl etmək üçün, ilk növbədə, bu qaydaları bilməyin vacibliyi nəzərə alınaraq belə tədbirlərin keçirilməsi diqqətdə saxlanılır. Unutmaq olmaz ki, muxtar respublikada yol hərəkəti mədəniyyətinə əməl olunmasında yaxından iştirak etmək hər kəsin vətəndaşlıq borcudur.

Tədbirdə yolun hərəkət hissəsinin yalnız piyada keçidi vasitəsilə keçilməsi, piyadaların məsuliyyəti, sürücülərin üzərinə düşən vəzifələr və digər məsələlər barədə ətraflı söhbət açılıb, gənclərin piyadalar arasında keçirilən maarifləndirmə tədbirlərində fəallıq göstərmələrinin əhəmiyyəti vurğulanıb.

Sonra gənclər şəhərimizin bir sıra prospekt və küçələrində yol hərəkəti qaydalarına əməl olunmasını izləyiblər. Müşahidə zamanı bu qaydalara əməl edən piyadalara minnətdarlıq bildirilib, qaydaları pozanlarla söhbətlər aparılıb, onlara Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsi tərəfindən hazırlanmış “Yol hərəkəti təhlükəsizliyinə dair piyadalar üçün buklet”lər təqdim olunub.

**Tural AĞAYEV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 228